

İsmayıl İmanzadə və Tariyel Abbaslının Cəbrayıl rayonundan olan 2-ci Qarabağ müharibəsi şəhidlərinə həsr etdikləri "Zəfər yolunda" (Bakı, "Bilgi", 2021) kitabında "Zəfər yolunun bayraqdarı" adlı yazıdan oxuyuruq:

"Ömrünün ən mənalı çağlarında Vətən yolunda candan keçərək əbədi yaşamaq haqqı qazananlardan biri də Milli Ordumuzun mayoru, ailə şəcərəsinə əsasən baba yurdu Böyük Mərcanlı kəndi ilə qırılmaz tellərlə bağlı olan Budaqov Rəşad Ramiz oğludur. Rəşad 13 mart 1986-cı ildə Yevlax şəhərində dünyaya göz açıb. 1993-2004-cü illərdə doğulduğu şəhərdəki 4 saylı məktəbdə oxuyub. Orta məktəbi bitirəndən sonra 2004-cü ildə H.Əliyev adına Ali Hərbi Məktəbə daxil olmuş, 2008-ci

# RƏŞADƏTLİ RƏŞADIN DASTAN ÖMRÜ

ildə ali təhsilli tankçı zabit qismində Azərbaycan Ordusunda leytenant rütbəsi ilə tağım komandiri kimi xidmətə başlamışdır. Sonrakı illərdə tağım komandiri, bölük komandiri, taborun qərargah rəisi, tabor komandiri, Yevlaxdakı "N" saylı hərbi hissədə briqada komandirinin Maddi Texniki Təminat üzrə müavini vəzifələrində çalışmış, mayor rütbəsinə qədər yüksəlmişdir. Xidməti vəzifəsi ilə əlaqədar ayrı-ayrı vaxtlarda cəbhənin müxtəlif istiqamətlərində - Füzuli, Ağcabədi, Bərdə və Goranboy rayonlarında əsgər və zabitlərlə birgə fəaliyyət göstərmişdir. 2016-cı ilin aprel ayının əvvəllərində cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə düşmənin hərbi texnikalarının sıradan çıxarılmasında qəhrəmanlıqlar göstərmişdir...

Milli Orduda xidmət etdiyi ayrı-ayrı illərdə "Hərbi Xidmətdə Fərqlənməyə görə", "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" medalları ilə təltif olunmuşdur." (səh.25).

Bu yığcam informasiyada mayor Budaqov Rəşadın hərbçi kimi qəhrəman obrazı aydın görünür. Düzü, bu kitab hələ çapa getməmişdən qabaq da mən Rəşadla bağlı yazmaq fikrindəydim. Ancaq iş elə gətirdi ki, bir xeyli vaxt ötdü. Rəşadın böyük qardaşı Vüqarla söhbətdən bir daha öyrəndim ki, babaları Süleymanı o vaxtlar bolşeviklər Böyük Mərcanlıda öldürüblər, Süleymanın həyat yoldaşı Naxçıvandan olduğuna görə, o vaxtlar azyaşlı olan Zülfəli Budaqovu da özü ilə götürüb Şahbuz rayonuna köçüb, orada yaşayıblar. Daha sonralar isə iş yeri ilə bağlı olaraq Yevlax rayonunun mərkəzinə köçüblər. Beləcə, tarixin indiki kimi qarışıq dolanbaclarında Böyük Mərcanlıdan Naxçıvana, Naxçıvandan isə Yevlax şəhərinə köç edən bir ailənin davamçıları harada yaşamalarından asılı olmayaraq, öz baba yurduna olan məhəbbətlərini həmişə ürəklərində yaşadıblar. Elə ata-baba yurduna bağlılığın bir əlamətibariz keyfiyyətidir ki, ataları Süleyman bolşeviklər tərəfindən öldürülərkən qundaqda uşaq olan Xəlil böyüyüb boya-başa çatdıqdan sonra qayıdıb Böyük Mərcanlıya gəlir.

Vüqar danışır ki, baxmayaraq ki, Yevlax şəhərində doğulub yaşayıblar, ancaq uşaqlığımız demək olar ki, Böyük Mərcanlıda keçib. Babaları Zülfəli kişinin qardaşı Xəlil kişinin ocağını dədə-baba yurdu kimi doğma hesab ediblər. Ancaq bir vaxtlar bolşevik qurşununun güdazına gedən Süleyman kişinin nəvə-nəticələrini doğma dədə-baba yurdundan da didərgin saldılar bolşeviklərin davamçıları. 1993-cü ildə bolşeviklərin fitvası ilə Qarabağ, Cəbrayıl və Böyük Mərcanlı elləri öz doğma ocaqlarından qaçqın-köçkün düşdülər.

Vüqar, Ömər və Rəşad Ramiz oğulları Yevlaxda yaşasalar da, hər il yayda gedib-gəldikləri Böyük Mərcanlıya daha gedə bilmədilər. Bir vaxtlar babalarını qətlə yetirən bolşeviklər indi də bədnam ermənilərin əli ilə baba yurdlarını talan etdilər. Uşağın yaddaşından uşaqlıq xatirələrini silmək olmaz. O yaddaşda dədə-baba yurdu deyilən vətən kök salmışdı. Odur ki, şəhid Qənbər Məhərrəmovun adını daşıyan 4 saylı Yevlax şəhər orta məktəbini fərqlənmə ilə bitirən Rəşad Ramiz oğlu Budaqov hərbçi olmaq istəyində israrlı olub, Ali Hərbi Məktəbə daxil oldu, tankçı kimi müvəffəqiyyətlə buranı bitirdi. Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi hissədən xidmətə başladı. Əhmədbəylidə, Ağcabədidə işlədi. Bərdədə qərargah rəisi, Goranboyda əlahiddə briqadanın komandir müavini vəzifələrində çalışdı.

Hərbçi kimi zabitəli, qeyrətli olan Rəşad Budaqov 2016-cı ilin Aprel döyüşlərində də qəhrəmanlıq göstərmiş, hətta top mərmisindən qopan qəlpə gözünün alt tərəfini azacıq tutmuş və təsadüfən o döyüşdən salamat çıxmışdı. General Polad Həşimovla çox yaxın dost idi və onun ölümü də ona çox ağır təsir etmişdi.

Rəşadın qardaşı Vüqar deyir ki, ailəmizin sonbeşiyi idi, biz həm qardaş, həm də dost idik. Ayın 26-da mənə zəng etdi, "Qıy başlayır", dedi. Müharibəyə "qıy" deyirdi, sonra isə "can gedirik almağa" mahnısını səsləndirdi. 99 faiz şəhidlikdir yolumuz,-dedi və əməlli-başlı vəsiyyət elədi danışığında.

Rəşadgil Tapqaraqoyunlu kəndindən döyüşə giriblər. Qeyd edim ki, maddi-texniki təminat şöbəsində (MTO-da) olsa da, professional döyüşçü olduğuna görə elə ilk anlardan və ən təhlükəli mövqedən döyüşə atılmışdı. İnçəçay dərəsindən keçərək, Talışı alıblar. Daha sonra Suqovuşan istiqamətində irəliləyiblər. Suqovuşanın girişində PDM minaya düşür. Döyüşün 2-ci günü - sentyabrın 28-də minomyot zərbəsinə tuş gələn tank aşır, 3 nəfər ekipaj üzvü texnikanın içində yanıb həlak olur. Neytral ərazidə olduğundan 3 gündən sonra - sentyabrın 30-da onların nəşini götürmək mümkün olur.

Oktyabrın 1-də onu Yevlax şəhərindəki Şəhidlər Xiyabanında torpağa tapşırırlar.

Vüqar bir məqamı da xatırlatdı ki, atamız 2017-ci ilin mayında rəhmətə gedib. Sentyabrın 20-də atasının doğum günündə anası Sədaqət xanıma deyib ki, hazırlaş, üçrəngli bayraqda gələcəyəm. Rəşad dediyi kimi də etdi. Şəhid kimi üçrəngli bayrağa bürünüb gəldi.



Özünün dediyi kimi, qardaşı ilə təkcə qardaş yox, həm də dost olan Vüqarın xatirələri bitib-tükənmək bilmir. "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunan mayor Budaqov Rəşad Ramiz oğlunun vətən yolundakı misilsiz qəhrəmanlığı xalqımızın xatirəsindən heç vaxt silməyəcək. Gülnarə xanım həyat yoldaşı Rəşad Budaqovun qısa, lakin mənalı, şərəfli həyat yolundan bu gün hələ həyatı tam dərk etməyən qızları Selcan və Milaya gələcəkdə danışanda, onlar da belə bir qəhrəman atanın övladları olmaqdan qürur duyacaqlar. Tankçı mayor rəşadətli Rəşad dastanı bir həyat həqiqəti kimi dillərdə-ağızlarda gəzib-dolaşacaqdır.

**Şakir ƏLİFOĞLU**